*Bakı Dövlət Universiteti - 105*

**UOT 94(479.24)**

**ƏSMƏD MUXTAROVA**
*tarix elmləri doktoru, professor*
*Bakı Dövlət Universitetinin "Türk xalqları tarixi" kafedrasının müdiri,*
**asmadmukhtarova@bsu.edu.az**

# BAKI DÖVLƏT UNİVERSİTETİ: 105 İLLİK ŞANLI TARİX

DOI: https://doi.org/10.36719/2708-065X/106/17-22

*2024-cü il noyabrın 15-də müstəqil Azərbaycanın ən qədim və ən böyük ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin yaranmasının 105 ili tamam olur. Bu müddət ərzində daim azərbaycançılıq məfkurəsinə sadiqlik nümayiş etdirən Universitetin ölkəmizdə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların dərin məzmun kəsb edərək son texnologiyaların da tətbiqi ilə müasir standartlara uyğun aparılmasında, milli özünüdərk prosesinin inkişafında müstəsna xidmətləri vardır. Universitet ölkəmizin intellektual potensialının inkişafında, həmçinin elm, təhsil və mədəniyyətimizin tərəqqisində, müstəqil milli dövlətçilik düşüncəsinin təşəkkülündə, Azərbaycanın zəngin tarixi-mədəni irsinin dərindən öyrənilməsində önəmli rola malikdir. Təsadüfi deyildir ki, 2019-cu ildə universitetin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin sərəncamında vurğulanırdı ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı gündən etibarən nailiyyətlərlə dolu zəngin şərəfli bir yol keçmişdir.*

*Açar sözlər:* Bakı Dövlət Universiteti, ali təhsil, elm, maarif, Azərbaycan Xalq Cümhuriyyəti.

***Giriş.*** Azərbaycanın elm və təhsil tarixində müstəsna xidmətləri olan, ölkəmizdə ali məktəblərin flaqmanı missiyasını həm XX, həm də XXI əsrə uğurla yerinə yetirən Bakı Dövlət Universiteti şərəfli inkişaf yolu keçmişdir. Universitetin yaranması hələ XX əsrin əvvəllərində genişənən milli maarifçilik, milli azadlıq mübarizəsinin yekunu kimi bu mübarizəyə rəhbərlik edən mütəfəkkir şəxsiyyətlərin, ziyalıların böyük fəaliyyətləri nəticəsində təsis olunub. Həmin ziyalılar hələ XIX əsrin ikinci yarısından müasir, Avropa tipli təhsil müəssisələri yaratmaq, cəmiyyətin müasirləşməsi uğrunda mübarizə aparırdılar. Onların yaratdığı zəmin əsasında Azərbaycanın dövlətçiliyi tarixinə silinməz izlər buraxan Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin milli təhsil və dövlət quruculuğu sahəsində apardığı siyasətin real nəticəsi olaraq Bakı Dövlət Universitetinin əsası qoyulmuşdur. Bu baxımdan Bakı Dövlət Universiteti Cümhuriyyətimizin Azərbaycan xalqına bəxş etdiyi əvəzsiz töhfəsi və yadigarıdır.

***Universitet Cümhuriyyət dönəmində.*** Azərbaycan Xalq Cümhuriyyəti xadimləri ölkəmizdə ali təhsil müəssisələrinin yaradılması, ali savadlı milli kadrlarının hazırlanmasını qarşılarına qoyduqları ən ciddi məsələlərdən biri hesab edirdilər. Bu sahədə Milli Hökumət iki istiqamətlədə iş aparırdı:

1). Ölkədə ali təhsil müəssisələrinin yaradılması;

2). Azərbaycanlı gənclərin Avropanın qabaqcıl universitetlərinə təhsil almağa göndərilməsi.

İlk istiqamətdə əsas diqqət Bakı Dövlət Universitetinin, habelə Kənd Təsərrüfatı və Pedaqoji İnstitutların, Konservatoriyanın yaradılmasına yönəldilmişdi. 1919-cu il aprelin 14-də Nəsib bəy Yusifbəylinin sədrliyi ilə yaradılan IV Hökumət Kabinetinin Parlamentə təqdim etdiyi proqramda Bakı Universitetinin təsis edilməsi də prioritet məsələ idi. Bu məsələ ilə bağlı Hökumət Proqramında deyilir-

di: “Möhtərəm məbuslar! Məlumunuzdur ki, istiqlalımız, istiqbalımız həp maarifə bağlıdır. Əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə, bizim üçün nicat ümidi qalmaz. Hökumət bunu bilir. Bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlamaya və bu eylüldən (sentyabrdan – Ə.M.) etibarən ibtidai məktəblər açmağa təşəbbüs ediləcəkdir... Hökumət ali təhsili dəxi düşünmüşdür. Bunun üçün Ali Ziraət Məktəbi qanun layihəsi təsvibinizə təqdim edilmişdir. Tiflisdə bulunan Mavərayi-Qafqaz Darülfününunun paytaxtımıza nəqli üçün müzakirəyə girişilərək eylül ibtidaları tədrisata burada davam edilməsinə səy və iqdam ediləcəkdir” [2, s.447-448].

N.Yusifbəylinin yuxarıdakı çıxışından bəlli olur ki, Cümhuriyyət hökumətinin ali təhsil sahəsində əsas məqsədlərindən biri Kənd Təsərrüfatı İnstitutunun yaradılması, digəri isə vaxtilə Tiflisdə yaradılmış Zaqafqaziya Universitetinin 1919-cu ilin iyununda Bakıya köçürülməsi məsələsi idi. Əlbəttə, Zaqafqaziya Universitetinin Bakıya köçürülməsi haqqında əvvəllər maarif naziri olmuş N.Yusifbəylinin rəhbərliyi ilə Azərbaycan nümayəndələri Gürcüstan hökuməti ilə danışıqlar aparırdı. Cümhuriyyətin parlaq simalarından olan Fətəli xan Xoyski də Tiflisdə olarkən Zaqafqaziya Universitetini yaratmaq istəyən professor Vasili Razumovskiyə həmin universitetin Bakıda açılmasını məsləhət görərək demişdi: Niyə məhz Tiflisdə? Tiflisdə politexnikum var, indi Gürcü Universiteti. Bəlkə, universiteti Bakıda təşkil etmək daha məqsədyönlüdür?” [8, s.12]. Bu təklifi ən çox müdafiə edənlərdən biri də Cümhuriyyətin ilk maarif naziri Nəsib bəy Yusifbəyli olmuşdur. Gərgin debat və müzakirələrdən sonra Bakıda universitetin təsis edilməsi ilə bağlı qanun layihəsi 21 avqust 1919-cu ildə Cümhuriyyət Parlamentinin iclasının gündəliyinə salınır. Həmin iclasa sədrlik edən görkəmli pedaqoq Sultan Məcid Qənizadə Bakıda universitet açılmasına dair qanun layihələrinin müzakirəsinə başlamağı təklif edir. Müzakirələr zamanı Cümhuriyyət parlamentinin katibi Mehdi bəy Hacınski BDU-nun yaradılması ilə bağlı çıxışında mövcud durumu belə ifadə edirdi: “Hörmətli deputatlar! Bakıda Azərbaycan dövlət universitetinin açılması ilə bağlı böyük səs-küy qopmuşdur. Bunun lehində və əleyhində olanlar çoxdur ...Bakıda universitetin olması mümkündür, ya yox? Hökumət bəyannaməsində deyir ki, mümkündür. Çünki professorlar gəlmək istəyirlər” [3, s.7; 6, s.93]. Buradan bəlli olur ki, Bakıda universitetin yaradılması məsələsi ciddi müzakirə predmeti olmuş, məsələyə bir-birinə zidd mövqelər sərgilənmişdi. Bu zaman Cümhuriyyətin banilərindən olan Məhəmməd Əmin Rəsulzadə universitetin yaradılmasının əleyhinə olanlara öz qəti etirazını bildirərək möbqeyini belə əsaslandırmışdı: “Hər şeydən əvvəl biz hamımız bunu etiraf edirik ki, Azərbaycanda elmlərə, biliklərə bələd olan mütəxəssislər və bütün ölkənin maariflənməsini yüksəltmək üçün universitet binası lazımdır. Deyirlər ki, əsas etibarilə universitet açılması əleyhinə deyilik. Əslində isə əleyhinədirlər. Bizim ölkəmizdə universitetə ehtiyac o nöqteyi-nəzərdən vardır ki, bizdə ixtisaslı, mütəxəssis alimlər yoxdur. Bu cür adamların yoxluğu hər cəhətdən təsirini göstərir. Ona görə bir an əvvəl alim, mütəxəssis, təcrübəli adamları yetişdirmək hökumət və dövlətin vəzifəsidir” [3, s.8].

Beləliklə, bütün maneə və çətinliklərə rəğmən, 1919-cu il sentyabrın 1-də “Bakı Dövlət Universitetinin təsisi haqqında”, eləcə də 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına xarici ölkələrin ali məktəblərində təhsil almağa göndərilməsi barədə Cümhuriyyəti Parlamentində qanun qəbul edildi. Parlament xaricə göndərilən gəncləri seçmək üçün Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə Mehdi bəy Hacinski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov və Abdulla bəy Əfəndiyevdən ibarət xüsusi müsabiqə komissiyası yaratdı. Komissiya iki həftə ərzində müsabiqəni uğurla həyata keçirərək bu barədə hökumətə yazılı açıqlama verdi. Nəticədə Xalq Maarifi Nazirliyi tələbələrdən 49 nəfərə Almaniya, 27 nəfərə Fransa, 4 nəfərə İtaliya, 1 nəfərə İngiltərə, 6 nəfərə isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilməsi haqqında rəsmi sənəd verdi. Rusiyada vətəndaş müharibəsi getdiyi üçün müsabiqədən keçən 13 nəfər gənci ora göndərmək mümkün olmadı.

1919-cu il sentyabrın 15-də universitet komissiyasının sonuncu iclası keçirildi, iclasda Müvəqqəti Şura və Universitet İdarə Heyəti yaradıldı. Sentyabrın 29-da “Bakı Dövlət Darülfünunun Nizamnaməsi” Parlament tərəfindən təsdiq edildi. 5 fəsil və 72 maddədən ibarət olan Nizamnamədə universitetin strukturu, elm və tədris sahələrinin fəaliyyəti, professor-müəllim heyətinin vəzifə və hüquqları kimi mühüm məsələlər müəyyənləşdirilmişdi [4, s.26].

Yenicə açılmış universitetin yalnız iki fakültəsi var idi: Tibb fakültəsi və Tarix-filologiya fakültəsi. Hər iki fakültədə türk (Azərbaycan) dilinin icbari tədrisi nəzərdə tutulmuşdu. Universitetə xaricdən dəvət edilən rektor, dekan və professor-müəllim heyətinin qarşısında ali savadlı yerli kadrlar hazır-

lamaq kimi mühüm vəzifə dayanırdı. Görkəmli rus alimi, professor V.İ.Razumovski universitetin rektoru, N.A.Dubrovski Tarix-filologiya fakültəsinin dekanı, İ.İ.Şirokoqorov Tibb fakültəsinin dekanı seçilmişdi. Birinci tədris ilində təxminən 11 milyon manat məbləğində smeta təsdiq edildi [7, s.173]. Hökumət bahalaşma dövründə universitet işçilərinin əmək haqqlarının müvafiq səviyyədə artırılması, səlahiyyətli şəxslərin evlə təmin edilməsi, yaxud evpulu verilməsi məsələləri də qoyulmuşdu. İlk dəfə olaraq həm qadınların, həm də kişilərin ali təhsil almaq kimi bərabər hüquqlarının olduğu vurğulanırdı. Eyni zamanda qadınların da universitetdə dərs deməsinə şərait yaradıldığı göstərilirdi.

1919-cu il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu. Bunu "təkcə Azərbaycan üçün deyil, bütün islam dünyası üçün böyük tarixi hadisə kimi" qiymətləndirən professor V.Razumovski sonralar bu məsələnin tarixindən danışarkən böyük iftixar hissi ilə yazmışdı: "Azərbaycan öz ali təhsil ocağını yaratdı. Azərbaycan xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşağında yeni çıraq yandı". İlk tədris ilinə universitet 44 nəfər (o cümlədən 12 professor, 3 dosent) akademik heyətlə başladı. Universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər, azad dinləyicilərin sayı 217 nəfər idi. Beləcə 1919/1920-ci tədris ilində Bakı Dövlət Universitetinin 1094 tələbə təhsil alırdı. Tarix-filologiya fakültəsində 604 nəfər, Tibb fakültəsində 490 nəfər təhsil alırdı. Tələbələrin 297 nəfəri azərbaycanlı, 366 nəfəri yəhudi, 209 nəfəri rus, 222 nəfəri digər millətlərin (gürcü, erməni, polyak, alman və s.) nümayəndələri idi [5, s.34].

***Universitet sovet dövründə.*** 1920-ci ilin aprel işğalından sonra Bakı Dövlət Universiteti yeni tarixi şəraitdə fəaliyyət göstərməyə başladı, universitetdə təlim-tərbiyə və elmi fəaliyyətin əsas istiqamətləri sinfi mübarizə və kommunist partiyası prinsipləri əsasında quruldu. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin 1920-cu il 10 və 22 may tarixli dekretləri ilə universitetdə yenidənqurma işləri aparıldı. [1, s.98] 1920-ci ildə qəbul edilmiş Bakı Dövlət Universiteti haqqında yeni Əsasnamədə bütün əsas kursların və məşğələlərin müvəqqəti olaraq rus dilində aparılması nəzərdə tutulurdu. 1922-ci ilin dekabrında ali təhsil ocağı rəsmi olaraq Azərbaycan Dövlət Universiteti adlandırılır, 1924-cü il yanvarın 23-də universitetə V.İ.Leninin adı verilir. 30-cu illərdə ziyalılara qarşı repressiyalar Universitetin timsalında öz bariz nümunəsini göstərir, bu illərdə universitetin bir neçə rektoru ən ağır cəzaya, güllələnməyə məhkum edilir, yüzlərlə universitet əməkdaşı güllələnir. Bütün bu terror və təzyiqlərə baxmayaraq universitet və onun kollektivi ağır sınaqdan şərəflə çıxdı. İkinci Dünya müharibəsi illərində universitet alimləri bir sıra qlobal miqyaslı kəşflərə imza atdılar. Buna ən bariz nümunə kimi akademik Yusif Məmmədəliyevin donmayan sürtkü yağlarını kəşf edərək sovet hərbi aviasiya sənayesində verdiyi ciddi töhfəni göstərmək olar. Müharibədən sonrakı illərdə sovet cəmiyyətində baş verən mütərəqqi hadisələr universitet həyatına da müsbət təsir etdi ki, bu baxımdan 50-60-cı illəri universitetin yüksəliş dövrü kimi qiymətləndirmək olar.

Universitetin tarixində ən mühüm yüksəliş və çiçəklənmə dövrü Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbər təyin olunduğu 1969-cu ildən başlanır. 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubiley tədbirində iştirak edən Heydər Əliyevin o zaman üçün fövqəladə hal hesab edilən partiya liderinin Azərbaycan dilində çıxış etməsi universitet həyatında milli ruhun, milli özünüdərkin, milli dirçəliş və oyanışın baş qaldırması üçün qığılcım rolunu oynadı. Azərbaycan ziyalısı milli mənafeyi hər şeydən uca tutan həqiqi liderini tanıdı və ümidlərini ona bağladı. Respublika rəhbərinin ana dilində çıxışı Azərbaycan dilində tədrisin qüvvətləndirilməsinə, milli dilimizin hərtərəfli inkişafına xidmət edirdi. Bunun nəticəsində tezliklə universitetdə yaradılan 4 cildlik "Müasir Azərbaycan dili" dərsliyi Dövlət Mükafatına layiq görüldü. Ümummilli lider Heydər Əliyevin böyük fədakarlığı və mübarizəsi sayəsində Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasında Azərbaycan dilinə dövlət dili statusu verildi. Sovet Azərbaycanına rəhbərliyi illərində (1969-1982) Heydər Əliyevin böyük himayəsi ilə universitet ölkədə ali məktəblərin flamanına çevrildi, universitetlə bağlı yaranmış "Qoy, ədalət zəfər çalsın!" aforizmi Azərbaycanda mənəvi-əxlaqi prinsipə çevrildi, 15 minə yaxın gənc Sovet ittifaqının aparıcı ali təhsil məktəblərinə təhsil almağa göndərildi. Universitetin 50, 60, 75 və 80 illiyi Heydər Əliyevin iştirakı və rəhbərliyi ilə dövlət səviyyəsində qeyd edildi.

Heydər Əliyevin Universitetin Tarix fakültəsinə və bütövlükdə tarix elminə xüsusi münasibəti olub. 1994-cü ildə Bakı Dövlət Universitetinin 75 illik yubiley mərasimindəki çıxışında o, məzunu olduğu tarix fakültəsinin də adını vurğulayaraq, onun ölkəmizdə elmin inkişafında müstəsna rolundan danışmışdı. 1997-ci ilin yanvarın 31-də AMEA-nın rəhbərliyi, həqiqi və müxbir üzvləri və aparıcı

alimləri ilə görüşdə Ümummilli lider Heydər Əliyev: "Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır" – deməklə, tarix elminin müstəsna rolunu, əhəmiyyətini qeyd etmişdir.

***Universitet müstəqillik dönəmində.*** Hazırda Azərbaycan Respublikasının aparıcı ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti dövlətimizin milli təhsil konsepsiyasının, milli ideologiyamızın həyata keçirilməsində böyük rol oynayır. Xüsusilə Prezident İlham Əliyevin qayğısı və diqqəti sayəsində BDU-nun ölkədə olan nüfuzu, beynəlxalq şöhrəti də günü-gündən artır. Görkəmli ictimai-siyasi xadimlərin, alimlərin, ədiblərin və bir çox başqa ziyalılar böyük bir hissəsi məhz BDU məzunlarıdır. Universitet bu günə qədər dövlət idarəçiliyinin, xalq təsərrüfatının, elmin, təhsilin, mədəniyyətin müxtəlif sahələrində müvəffəqiyyətlə çalışan on minlərlə yüksək ixtisaslı milli kadr hazırlamışdır.

BDU respublikamızda yüksək ixtisaslı kadrların hazırlanması prosesində mühüm rola malik olan ali təhsil ocağıdır. Rəhbərlik etdiyim "Türk xalqları tarixi" kafedrası universitetin böyük nailiyyətlər əldə etməsinə öz töhfəsini verir. Universitetin fəaliyyətinin ilk illərində Tarix fakültəsində mövcud olmuş kafedralardan biri olan "Türk xalqları tarixi" kafedrası türkologiya sahəsində tarixi və ədəbi tədqiqatların mərkəzi olmuş, lakin sonradan məlum səbəblərə görə fəaliyyəti dayandırıldımışdı. Stalin repressiyası illərində türkoloqların əksəriyyəti repressiyalara məruz qalmış, bu səbəbdən də Sovet dövründə türk xalqlarının tarixinə aid tədqiqatlar başqa mövzuların tərkibində müxtəlif adlar altında aparılmış, şərqşünaslıq, ədəbiyyat və linqvistika aspektlərində araşdırılmışdır. Keçən əsrin 90-cı illərində Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1992-ci ildə fakültə Elmi Şurasının qərarı ilə əvvəlki "SSRİ tarixi (sovet dövrü)" kafedrasının əsasında fakültədə yenidən fəaliyyətə başlamışdır. Bununla da, Azərbaycanda türk xalqları tarixinə dair tədqiqatlara geniş imkanlar yaranmışdır. Kafedra fəaliyyətini bərpa etdiyi gündən türk dünyası ilə elmi əlaqələr yaratmış, fakültənin beynəlxalq əlaqələrində fəal iştirakı ilə fərqlənmişdir.

"Türk xalqları tarixi" kafedrasının beynəlxalq əlaqələri tədris və elmi münasibətlər olmaqla iki istiqamətdə qurulmuşdur. Əlaqələr kafedranın əməkdaşlarının, magistrant və doktorantlarının beynəlxalq konfranslarda və mübadilə proqramlarında iştirakı, elmi araşdırmaların nəticələrinin beynəlxalq elmi ictimaiyyətə çatdırılması, xarici universitetlərlə birbaşa əlaqələrin qurulması formalarında həyata keçirilir. Kafedranın professor-müəllim heyəti müntəzəm surətdə müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfranslarda, simpoziumlarda və seminarlarda iştirak edirlər. Kafedranın beynəlxalq əlaqələrinin mühüm istiqamətlərindən biri də 1997-ci ildən nəşrinə başlanmış və bu günə qədər 105 sayı nəşr olunmuş, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının nüfuzlu nəşrləri siyahısına daxil edilmiş "Tarix və onun problemləri" elmi, nəzəri, metodik jurnal vasitəsilə qurulmuş əlaqələrdir. Jurnal vasitəsilə ABŞ, Almaniya, Rusiya, Türkiyə, İran, İsrail, Özbəkistan, Qırğızıstanın elmi ictimaiyyəti ilə, həmçinin həmin ölkələrdəki Azərbaycan diasporasının nümayəndələri ilə əlaqələr qurulmuşdur. Bunu Türk xalqları tarixi kafedrasının Tarix fakültəsinin və bütövlükdə Bakı Dövlət Universitetinin tərkibində özünün fəallığı və elmi-tədris potensialı ilə sayılıb-seçilən kafedralarından biri olduğunun bariz göstəricisi hesab etmək olar.

***Nəticə.*** Bu gün Bakı Dövlət Universiteti Azərbaycanın ali təhsil müəssisələri arasında flaqman rola malikdir. Doğma təhsil ocağımız özünün zəngin tarixi və elmi-pedaqoji ənənələrinə, təcrübəsinə, möhtərəm Prezident İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasətə arxaralanaraq, elm və təhsil yolunda xalqımıza, dövlətimizə dəyərli töhfələrini verir, gələcəyə doğru inamla addımlayır. Yaşa, çiçəklən, var ol, Bakı Dövlət Universiteti!

ƏDƏBİYYAT

1. Atakişiyev A. M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarixi. İki hissədə, I hissə. Bakı, "Bakı Dövlət Universitetinin nəşriyyatı", 1991, 528 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. Stenoqrafik hesabatlar. I cild. Bakı, "Azərnəşr", 1998, 976 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. Stenoqrafik hesabatlar. II cild. Bakı, "Azərnəşr", 1998, 992 s.

4. Əmrahov Z., İsmayılov S. Bakı Dövlət Universitetinin tarixi. Bakı, "Elm və təhsil", 2019, 328 s.
5. İsgəndərov A. Əliqızı S. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı: Bakı Dövlət Universiteti - 100. Bakı, "Nurlar", 2019, 176 s.
6. Mərdanov M., Quliyev Ə. Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920). Bakı, "Çaşıoğlu", 2003, 240 s.
7. Nəzərli Ə. Azərbaycan Cümhuriyyətində xalq təhsili: 1918-1920-ci illər. Bakı, "Xəzər Universiteti nəşriyyatı", 2018, 238 s.
8. Razumovski V., Makovelski A. Bakı şəhərində Universitetin yaradılması. Bakı, "Nurlar", 2014, 112 s.

**АСМЕД МУХТАРОВА**
*доктор исторических наук, профессор,*
*Заведующий кафедрой «История тюркских народов»*
*Бакинского Государственного Университета*

## БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ: СЛАВНАЯ 105-ЛЕТНЯЯ ИСТОРИЯ

15 ноября 2024 года исполняется 105 лет со дня основания Бакинского Государственного Университета, старейшего и крупнейшего высшего учебного заведения Азербайджана. За этот период университет, всегда демонстрирующий свою приверженность идеологии азербайджанства, имеет исключительные заслуги в становлении системы высшего образования в нашей стране, в проведении научных исследований в соответствии с современными стандартами с применением новейших технологий, в развитии процесса национального самосознания. Университет играет важную роль в развитии интеллектуального потенциала Азербайджана, а также в прогрессе науки, образования и культуры, в формировании мысли о независимой национальной государственности, в глубоком изучении богатого историко-культурного наследия Азербайджана. Неслучайно, что в 2019 году в связи с празднованием на государственном уровне 100-летнего юбилея университета, распоряжением Президента Азербайджанской Республики Ильхама Алиева было особо подчеркнуто, что Бакинский Государственный Университет, являющийся символом Азербайджанской Демократической Республики, прошел почетный путь с богатыми достижениями с момента своего создания как первое высшее учебное заведение нового типа на мусульманском Востоке.

*Ключевые слова:* Бакинский Государственный Университет, высшее образование, наука, просвещение, Азербайджанская Демократическая Республика.

**ASMAD MUKHTAROVA**
*Doctor of Historical Sciences, Professor,*
*Head of the Department of History of Turkic Peoples at Baku State University*

## BAKU STATE UNIVERSITY: A GLORIOUS 105-YEAR HISTORY

November 15, 2024 marks the 105th anniversary of the foundation of Baku State University, the oldest and largest higher education institution in Azerbaijan. During this period, the university, which has always demonstrated its commitment to the ideology of Azerbaijanism, has made exceptional contributions to the development of the higher education system in our country, to conducting scientific research in accordance with modern standards using the latest technologies, and to developing the process of national self-awareness. The university plays an important role in the development of the intellectual potential of Azerbaijan, as well as in the progress of science, education and culture, in the formation of the idea of independent national statehood, and in the in-depth study of the rich historical and cultural heritage of Azerbaijan. It is no coincidence that in 2019, in connection with the celebration of the 100th anniversary of the university at the state level, the order of the President

of the Republic of Azerbaijan Ilham Aliyev, it was particularly emphasized that Baku State University, which is the relic of the Azerbaijan Democratic Republic, has passed an honorable path with rich achievements since its establishment as the first higher educational institution of a new type in the Muslim East.

*Keywords:* Baku State University, higher education, science, enlightenment, Azerbaijan Democratic Republic.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*